**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, M.Mirqasımov küç.,1A

Tel.: (+994 12) 441 26 03 Faks: (+994 12) 493 06 95
www.health.gov.az e-poçt: office@health.gov.az

"30" noyabr 2016 il

№ 88

# ƏMR

**"Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli Fərmanının icrası barədə"**

"Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanının icrası məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli Fərmanı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın ki, qeyd olunan Fərmanın 3.2-ci bəndinə əsasən pilot layihə keçirilən inzibati ərazilərində Səhiyyə Nazirliyinin səlahiyyətinə düşən məsələlər həll edilsin.

3. Maliyyə iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (bundan sonra - Agentlik) tabeliyinə verilən qurumların balansında olan əmlakın pilot layihə başa çatanadək Agentliyin istifadəsinə verilməsi 10 (on) gün müddətində təşkil edilsin.

4. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsədzadəyə tapşırılsın ki, Tibbi yardımın təşkili və Kadr, elm və təhsil şöbələri ilə birgə aşağıdakı məlumatlara real vaxt rejimində çıxış imkanı yaradılmasını (bu mümkün olmadıqda həmin məlumatların 1 (bir) iş günü müddətində elektron daşıyıcılarda Agentliyə çatdırılması təmin edilsin:

-pilot layihədə iştirak edən tibb müəssisələrinin adı, ünvanı, göstərdikləri tibbi xidmətlər;

-pilot layihədə iştirak edən tibb müəssisələrində işləyən həkimlər, orta tibb heyəti, texniki işçilər və xidmət heyəti barədə məlumatlar (onların iş yeri, vəzifəsi, ixtisası, sertifikasiya şəhadətnaməsinə dair məlumatlar göstərilməklə);

-pilot layihənin həyata keçirilməsi nəzərdə tutulan inzibati ərazilərdə səhiyyə sahəsində mövcud dövlət proqramları ilə əhatə olunan şəxslər barədə məlumatlar, o cümlədən şəxsin xəstəliyinin növü və dövlət proqramı ilə əhatə olunduğu müddət üzrə məlumatlar.

5. İnnovasiya və Təchizat Mərkəzinin direktoru N.Həsənova tapşırılsın:

5.1. Agentliyin təklifləri əsasında, Agentliyin tabeliyinə verilən qurumların tibbi avadanlıqlarla təchiz olunması Agentliklə razılaşdırmaqla 2017-ci ilin 1-ci rübü ərzində təmin edilsin;

5.2. dövlət (tədbirlər) proqramları ilə əhatə olunan xəstəliklərlə əlaqədar dərman təchizatı təmin edilsin;

5.3. stasionar xəstələrin müalicəsində istifadə olunan dərman preparatları ilə 2017-ci ilin yanvar ayı üçün tələb olunan dərman preparatları ilə pilot layihə keçirilən tibb müəssisələri təmin edilsin.

6. Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini icra edən E.Əzizova tapşırılsın ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin normativ hüquqi aktlarının sözügedən Fərmana uyğunlaşdırılması barədə təkliflərin bir ay müddətində hazırlanması təmin edilsin.

7. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**